# Qarabağın işğaldan azad olunması turizmin inkişafında yeni perspektivlər açır

***Pandemiya və 44 günlük Vətən müharibəsi ölkəmizin qeyri-neft sektorunda müəyyən çətinliklər yaratdı. Turizm şirkətləri də ciddi problemlər yaşadı. Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi altında şanlı ordumuzun şücaəti ilə Qarabağın işğaldan azad olunması, ölkəmizdə pandemiya ilə aparılan davamlı mübarizə artıq bu sahənin inkişafında yeni imkanlar açıb.***



Prezident İlham Əliyev son çıxışlarında azad olunmuş torpaqlarda əsas fəaliyyət meydanı kimi kənd təsərrüfatı və turizm sahələrini qeyd edib. Dövlət başçımızın bildirdiyi kimi, Qarabağ bölgəsinin çox zəngin turizm potensialı var. Bu potensial imkan verir ki, Qarabağ Azərbaycanın əsas turizm zonalarından birinə çevrilsin

Hələ sovet dövründə də Qarabağ marşrutu çox populyar idi. Şuşada balneoloji mərkəzlər mövcud olub, orada kanat yollarının çəkilməsi üçün 42 il öncə verilmiş anonslar da var idi. Əfsuslar olsun ki, biz o günü görmədik. Unikallıq ondadır ki, bu bölgədə dini, ekoloji, aqroturizm, eləcə də turizmin digər növləri üçün əlverişli imkanlar var.

Mənə belə gəlir ki, dövlət, özəl sektor və alimlərin birgə səyi sayəsində Dağlıq Qarabağın sıfırdan turizm potensialı imkanları işlənib hazırlanmalıdır. Onlar Qarabağın həm təbii, həm də antropogen turizm resurslarını nəzərdən keçirməlidirlər. Qarabağda turziminin inkişafı üçün yeni marşrutlar yaradılmalıdır. Dağlıq ərazi olduğundan, dağçılıq və alpinizm turizmi xüsusi qeyd edilməlidir. Bundan başqa, gəzintilər, aktiv və ekstremal turizmi də inkişaf etdirmək mümkündür.

Məndə olan məlumata görə, hazırda Dövlət Turizm Agentliyi tərəfindən işğaldan azad edilmiş ərazilərlə bağlı turizmin inkişafı dövlət strategiyası hazırlanır. Söz yox ki, Qarabağda turizm məhsullarının, turizm infrastrukturunun inkişaf etdirilməsindən öncə bir neçə komponent təmin edilməlidir. Belə ki, ilk növbədə təhlükəsizlik təmin olunmalıdır. Eyni zamanda, əhalinin geriyə qayıdışı və yaşayışı, bu yerlərdə infrastruktur bərpa edilməlidir.



Söz yox ki, bunlarla paralel olaraq turizm məhsullarının istehsalı artırılacaq. Bunun üçün investisiyaların cəlb edilməsi də vacibdir.

İşğaldan azad edilmiş ərazilərdə turizmin bütün sahələrini inkişaf etdirmək mümkündür. Təkcə Zəngilanda çoxlu sayda termal su mənbələri mövcuddur. Burada tarixi və dini abidələr, çinar meşəsi salmaq mümkündür. Belə hesab edirəm ki, təbiətinin zənginliyinə görə Qarabağın gələcəyi daha çox ekoturizmə bağlı olacaq. Bundan məharətlə istifadə etsək, Qarabağı dünyada mühüm ekoloji turizm məkanlarından birinə çevirəcəyik.

Xudafərin körpüsü, Azıx mağarası gələcəkdə turist marşrutu ola bilər. Mədəni-tarixi abidələrimizin bir çoxu dağıdılsa da, onların bərpasından sonra həmin istiqamətlərə turların təşkili mümkün olacaq.

Gələcəkdə İranla bu sahədə əməkdaşlıq inkişaf etdirilməlidir. Türk birliyinin müasir İpək yolu layihəsi mövcuddur. Azərbaycana daxil olmaq üçün Qars-İğdır-Naxçıvan marşrutu, İran ərazisindən dəmir yolu xəttinin çəkilməsi mümkün ola bilər. Burada marşrutlar təyyarə ilə nəzərdə tutulsa da, dəmir yolunun çəkilməsi tur paketin maya dəyərini də aşağı salacaq. Hazırlanacaq baş fəaliyyət planının içərisində turizm də çox böyük yer alacaq. Bu da Azərbaycanda daha çeşidli turizm xidmətlərinin təklif olunmasına gətirib çıxaracaq.

Güman edirəm ki, bu ilə əsas diqqət daxili turizm və Qarabağın turizm potensialının inkişaf etdirilməsinə yönəldiləcək. Mərhələli şəkildə beynəlxalq səyahətlər yenidən başlayacaq. Ona görə də Azərbaycanın beynəlxalq aləmdə turizm potensialının təbliği istiqamətində işlər sürətləndiriləcək.

Yeni turizm marşrutları da nəzərdə tutulub. Belə ki, birinci istiqamət Füzuli, Xocavənd, Şuşa, Laçındır. İkinci Cəbrayıl, Füzuli Zəngilan, üçüncü Zəngilan, Qubadlı, dördüncü Kəlbəcər, Laçın, beşinci isə Bərdə, Ağdam istiqamətidir. Regionların ayrı-ayrılıqda turizm potensialına baxdıqda, məsələn, təbiəti, mədəni-tarixi abidələri ilə Qarabağın incisi olan Şuşada müxtəlif tədbirlər, festivallar keçiriləcək. Laçın, Kəlbəcər istiqamətində mədəniyyət, təbiət, qış və sağlamlıq turizm imkanları var. Qubadlı, Zəngilan rayonlarında mədəniyyət və təbiət istiqaməti, Füzuli, Ağdam, Cəbrayıl rayonlarında mədəniyyətlə yanaşı, erməni işğalının acı nəticələrini əyani şəkildə göstərmək imkanları mövcuddur. Bu yerlərdə açıq muzeylər olacaq, orada işğalın nəticələrini göstərmək üçün bəzi tikililəri dağıdılmış halda saxlayacaq ki, daxili və xarici auditoriya üçün erməni vəhşilikləri, vandalizmi nümayiş olunsun.

Bu da aydındır ki, işğaldan azad edilmiş ərazilərdə infrastruktur bərpa olunduqdan sonra ilk növbədə Azərbaycan vətəndaşlarının həmin ərazilərə səfərləri gözlənilir. Çünki illərlə həsrətində qaldığımız yerləri gəzmək, görmək istəyəcəyik. İkinci böyük auditoriya potensialı xaricdə yaşayan Azərbaycan diasporunun nümayəndələridir. 10 milyondan çox azərbaycanlı, elə bizim hamımız üçün mədəni mərkəzə çevrilmiş Şuşanı görməkdə maraqlı olacaq. Qarabağ ərazisi on illərdir qapalı qalıb. Təbiətinə, mədəniyyətinə, tarixinə görə bu yerləri gəzmək hər kəs üçün maraq doğuracaq. Prezident Şuşanı Azərbaycanın mədəniyyət paytaxtı elan etmişdir. Bu şəhərin turizmin inkişafında mühüm rol oynayacağı şübhəsizdir. Kəlbəcərin İsti suyu sovet dövründə də turistlərin səfər etdiyi gözəl məkan olub. İndi biz oranın turizm imkanlarını özünə qaytarmalıyıq.

Söz yox ki, bu il turizm sahəsində yeni mərhələnin başlanğıcı olacaq. Bu, turizmin inkişafında həm gəlmə, həm də getmə turizmində böyük bir canlanmanın gözləyirik. Heç şübhəsiz ki, Qarabağ Azərbaycanda turizmin inkişafına yeni töhfələr verəcək.

Rəhbərlik etdiyim turizm şirkəti də Qarabağda turizmin inkişafında əhəmiyyətli rol oynamağa hazırdır.

***Eldəniz SƏFƏROV,***
***"Qlobus" turizm şirkətinin prezidenti***

Xalq qəzeti 2021.- 10 fevral.- S.7.